

QƏRBİ AZƏRBAYCAN



XX əsrin bəlası - Deportasiya



# “Qərbi Azərbaycan İrsi” haqqında düşüncələr

*Məlum olduğu kimi, qalib Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin 2022-ci ilin 24 dekabrında Qərbi Azərbaycan İcmasının inzibati binasında proqram xarakterli çıxışından sonra İcmanın mərkəzi, regional və yerli qurumlarının İcma və Nümayəndəlik formatında təşkilatlanma prosesinə başlanmış, Qərbi Azərbaycan həqiqətləri mövzusunda beynəlxalq konfranslar keçirilmiş, fundamental araşdırmalara start verilmişdir. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası qəbul edilmiş, "Qərbi Azərbaycan" ensiklopediyasının hazırlığına başlanmış, nəhayət bu yaxınlarda "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildinin respublika və rayon icra qurumları səviyyəsində təqdimetmə mərasimləri keçirilmişdir. Müvafiq qurumların tövsiyəsi əsasında Qərbi Azərbaycan İcmasının rəhbər qurumlarında təmsil olunan ziyalılarımız bu toplantılarda fundamental mahiyyətli toplunun məzmunu, məramı, məqsədi haqqında məruzələr etmişlər. Ucar, Oğuz və Qəbələ rayonlarında keçirilən tədbirlərdə Qərbi Azərbaycan İcmasını təmsil etmişəm.*




## Toplunun ərsəyə gəlməsinə stimul verən ictimai-tarixi zəmin

Cənab Prezidentin 44 günlük zəfər salnaməmizdən danışarkən dövlət suverenliyi və ərazi bütövlüyümüzün təmin olunması ilə bağlı "biz elə daşları yerindən tərpətmişik, elə layları yerindən oynatmışıq ki, uzun müddət bizə qarşı hücumlara hazır olmalıyıq" fikrinə istinadən bu toplu-çoxcildliyin erməni vandallığına qarşı beynəlxalq təşkilatları maarifləndirmək baxımından böyük əhəmiyyəti var. İstər Çar Rusiyası dövründə, istərsə də sovet hakimiyyəti illərində İrəvan şəhərinin tarixi saxtalaşdırılmışdır. Həmin dövrlərdə yazılmış əsərlərdə ermənilərin İrəvan şəhərinin köklü sakinləri olması qənaəti formalaşdırılmağa çalışılmışdır. Digər amil ondan ibarətdir ki, Sovet Azərbaycanının tarixçiləri İrəvan xanlığında Ermənistan dövləti yaradılması səbəbindən onun tarixinin yazılmasına təşəbbüs göstərməmişlər. Bu fürsətdən istifadə edən erməni tarixçiləri İrəvan şəhərinin tarixini istədikləri kimi saxtalaşdıraraq bir sıra əsərlər yazmış, qədim Azərbaycan ərazilərini erməni torpağı kimi qələmə vermişlər.

Toplunun əvvəlində xalqımızın inkişaf yoluna nəzər salınmaqla qeyd edilmişdir ki, "Azərbaycan xalqı zəngin tarixi inkişaf yolu keçmiş və dünya mədəniyyətinə özünəməxsus maddi-mənəvi sərvətlər bəxş etmişdir. Qobustan qayaüstü rəsmləri, İçərişəhər, Qız qalası, Şirvanşahlar sarayı, Şəki Xan sarayı, Azərbaycan xalqının yaratdığı və inkişaf etdirdiyi muğam və aşıq sənəti, xalçaçılıq, misgərlik, "Yallı" rəqsi və başqa bu kimi onlarla mədəniyyət nümunələrimiz dünyanın maddi və qeyri-maddi mədəni irsi kimi qorunmaqdadır. Qafqazda qədim dövlətçilik tarixi olan Azərbaycan xalqının yaşadığı coğrafiyada zaman-zaman Atropatena, Albaniya, Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər, Atabəylər, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər kimi dövlət quruluşları və xanlıqlar yaratmış, yadellilərin işğallarına qarşı qəhrəmanlıqla mübarizə aparmış, tarixi ədalətsizliklərlə qarşılaşmış və bütün bunlara sinə gərərək bugünkü səviyyəsinə yüksəlmişdir". Xalqımızın tarixində onun inkişafına mənfi təsir göstərən faciəli səhifələr də olmuşdur. Bu baxımdan ən ağrılı dövrlərdən biri XIX əsrin əvvəllərinə təsadüf etmişdir. 1804-1813, 1826-1828-ci illərdə baş verən rus-İran müharibələri nəticəsində Azərbaycan torpaqları Rusiya imperiyası ve İran arasında bölüşdürülmüş, Azərbaycanın Arazdan şimal hissəsi Rusiyanın, cənub hissəsi isə İranın tərkibinə daxil edilmişdir. Daha bir faciəli hadisə Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər) yaşanmışdır. Cümhuriyyətin elan edilməsindən bir gün sonra - 1918-ci il may ayının 29-da Azərbaycan Milli Şurası İrəvanı rəsmi qaydada ermənilərə verən qərara imza atmışdır. Bununla da Azərbaycanın şimal torpaqlarının qərb hissəsində Ermənistan daşnak dövləti qurulmuşdur. Azərbaycanın tarixi torpaqlarında yaradılan Ermənistan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin ərazilərini işğal etmək üçün müharibəyə başlamış, öz tarixi torpaqlarında yaşayan azərbaycanlıların məqsədli və ardıcıl şəkildə etnik təmizlənməsini, deportasiyasını həyata keçirmişdir. Bu siyasəti sovet Ermənistanı (1920-1991) və 1991-ci ildə müstəqilliyini elan edən Ermənistan Respublikası da davam etdirmişdir. Beləliklə, azərbaycanlılar öz tarixi-etnik torpaqlarında - Qərbi Azərbaycanda 4 dəfə ermənilərin və onların havadarlarının deportasiya və soyqırımı cinayətlərinə məruz qalmışdır. Topluda bu hadisə mərhələlərə bölünməklə təsnif edilmişdir. 1-ci mərhələ 1905-1907-ci illəri əhatə etmiş, bu zaman 90.000 azərbaycanlı deportasiya və soyqırımına məruz qalmış, 3-10 min arası əhali qətlə yetirilmişdir. 2-ci mərhələ 1918-1920-ci illəri əhatə etmiş, bu zaman 310-320 min əhali deportasiya və soyqırımına məruz qalmış, təkcə Zəngəzur qəzası üzrə 10.068 nəfər qətlə yetirilmişdir. 3-cü mərhələ - 1947-1953-cü illərdə 26 rayon və İrəvan şəhərindən 100.000 əhali deportasiya edilmişdir. 4-cü mərhələ isə 1987-1991-ci illəri əhatə etmiş, bu zaman 24 rayon, 284 yaşayış məntəqəsi üzrə 13 şəhər, 12 qəsəbə və 259 kənddə yaşayan 300.000-ə yaxın azərbaycanlı əhali deportasiya və soyqırımına məruz qalmış, onlardan 216 nəfər qətlə yetirilmişdir. Sovet ideologiyasının təsiri altında Azərbaycan tarixinin bu faciəli səhifələri uzun müddət tarixi tədqiqatlardan kənarda qalmışdır.

## Qərbi Azərbaycan həqiqətlərinə yeni baxış

Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra (1993-2003) bu sahədə əsaslı dəyişikliklər baş vermişdir. Ulu Öndərin ilk dəfə Azərbaycan Respublikasının qərbindəki indiki Ermənistan Respublikasının yerləşdiyi torpaqları tarixi və mənəvi əsasla Qərbi Azərbaycan kimi təqdim etmişdir. "...indi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan - İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı - bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur" deyərək Qərbi Azərbaycan ifadəsini ictimai-siyasi və elmi leksikonumuza daxil etmişdir. Məhz bu sözlərdən sonra indiki Ermənistanda qədim dövrlərdən 1991-ci ilə qədər yaşamış azərbaycanlıların tarixi inkişaf yolunun öyrənilməsinin nəzəri-təcrübi əsasları formalaşdırılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu nəzəri-təcrübi bazanı daha da zənginləşdirmiş, məhz onun göstərişi ilə İrəvan xanlığı haqqında geniş tədqiqatlar aparılmağa və fundamental tarixi əsərlər yazılmağa başlanmışdır. Prezident Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə 2022-ci il dekabrın 24-də keçirdiyi görüşdə Qərbi azərbaycanlıların öz torpaqlarına ləyaqətli və təhlükəsiz şəkildə qayıtması barədə tarixi və hüquqi əsaslı müddəalar irəli sürmüşdür: "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar". Bu müddəalar əsas götürülərək Qərbi Azərbaycan İcması tərəfindən "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" hazırlanaraq həyata keçirilməyə başlanmışdır.

Ermənistan dövləti Qərbi azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırımı və deportasiya siyasəti ilə kifayətlənməmiş, ümumiyyətlə, bu torpaqlardan azərbaycanlıların tarixi köklərini qoparmağa, onlara məxsus maddi-mədəni irsi məhv etməyə çalışmışdır. Ermənistan dövlətinin bu cinayətkar fəaliyyətinin tarixi dinamikasının müəyyənləşdirilməsi təkzibedilməz faktlar əsasında beynəlxalq hüquqa uyğun olaraq məsuliyyətə cəlb edilməsinin təşkili Qayıdış Konsepsiyasında qarşıda duran mühüm vəzifə kimi təsbit edilmişdir. İndiyədək Ermənistanda mövcud olmuş hakimiyyətlərin həmin ərazilərdəki azərbaycanlılara məxsus toponimlərə, tarix və mədəniyyət abidələrinə qarşı apardığı soyqırımı siyasəti ilə bağlı geniş tədqiqatlar aparılmış, təkzibedilməz fakt və sənədlərdən ibarət zəngin materiallar toplamışdır. Statistik məlumatların müqayisəli təhlilinə istinad edilən əsərdə qeyd olunur ki, Ermənistanın ərazisində tarixi azərbaycanlı varlığına qarşı siyasi fəaliyyəti deportasiya və soyqırımı cinayətləri ilə məhdudlaşmamış, bu fəaliyyətin əsas istiqamətlərindən biri maddi-mədəni irsin ən mühüm tərkib hissəsi olan azərbaycanlılara məxsus qəbiristanlıqların məhvinə yönəlmişdir. 1991-ci ilə qədər Qərbi Azərbaycan - indiki Ermənistan ərazisində 700-dən çox azərbaycanlı qəbiristanlığı mövcud olmuşdur. Bunu yüzlərlə xəritə, sənədlər, foto-video təsvirlər, şahid ifadələri və müasir peyk görüntüləri təsdiqləyir. Məlumdur ki, qəbiristanlıqlar dini və etnik icma üzvləri üçün həyatda olanlarla mərhumlar arasında böyük əhəmiyyət daşıyan mənəvi bağları qoruyur. Bu ərazilər müqəddəs yerlər kimi dini qayda və adət-ənənələr sistemi ilə salınır və qorunur. Məhz bu qayda və adət-ənənələr həmin qəbiristanlıqların yerləşməsini, xarici görünüşünü, həmçinin ərazidə icazə verilən hərəkət və davranışları tənzimləyir. Bu səbəbdən qəbiristanlıqların dağıdılması mədəni və tarixi irsin itirilməsi ilə nəticələnə, sosial və psixoloji problemlər doğura, icma üzvlərinə ruhi və dini təsir göstərə, sosial strukturun pozulmasına gətirib çıxara və beynəlxalq insan hüquqları prizmasından hüquqi və mülkiyyət məsələləri ilə bağlı məsuliyyət yarada bilir. Məsələnin doğura biləcəyi narahatlıqlar nəzərə alınaraq, Azərbaycanda ilk dəfə Ermənistan tərəfindən azərbaycanlıların qəbiristanlıqlarının sistemli şəkildə dağıdılması siyasəti və onun nəticələri tədqiqat obyektinə çevrilmişdir. Bu tədqiqat azərbaycanlıların tarixi-etnik torpaqları olan Qərbi Azərbaycandakı qəbiristanlıqlara qarşı Ermənistan dövləti tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən vandalizm siyasətinin sənədləşdirilməsinə həsr edilmişdir. Tədqiqat işinin bu baxımdan müstəsna əhəmiyyəti odur ki, müvafiq beynəlxalq təşkilatlar qarşısında Ermənistanın hüquqi məsuliyyətinə dair məsələ qaldırılmasına imkan verəcək. Beynəlxalq təşkilatların və dünya dövlətlərinin bu məsələyə diqqəti Ermənistanda azərbaycanlılara məxsus olan və hələ də xarabalığı qalan 50 qəbiristanlığın yer üzündən silinmək təhlükəsini aradan qaldırmağa kömək edəcək. Bununla da xalqımızın bir çox mədəni irs nümunələri kimi, qəbiristanlıqlarımız da qorunacaq və Qərbi azərbaycanlıların gələcək ziyarət yerlərindən birinə çevriləcək.



## Qərbi Azərbaycana qayıdış: təşəbbüsdən hərəkata doğru

"Qərbi Azərbaycan İrsi" tədqiqatlar seriyasının əsasən 5 hesabatdan ibarət olması nəzərdə tutulmuşdur. I, II, III hesabatlarda Qərbi Azərbaycanda Ermənistan dövləti tərəfindən məqsədli şəkildə dağıdılan azərbaycanlı qəbiristanlıqları, 4-cü hesabatda Qərbi Azərbaycanda məhv edilən məscidlər, V hesabatda isə Qərbi Azərbaycanda dağıdılan və məhv edilən pirlər və türbələr öz əksini tapacaq.

Birinci hesabat iki hissədən ibarətdir. Birinci hissədə hesabatın məqsədi və tədqiqatın predmeti müəyyən edilir, metodoloji prinsipləri əsaslandırılır. Məsafədən zondlama metodu və Normallaşdırılmış Fərqli Bitki Örtüyü İndeksi haqqında ətraflı məlumat verilir. Tədqiqat zamanı istifadə edilən mənbələr dörd qrupa bölünür (topoqrafik nəşrlər; peyk təsvirləri; ictimailəşmiş və arxivlərdən aşkar edilmiş sənədlər, Ermənistandan kino-foto materiallar, deportasiya edilmiş azərbaycanlılara aid memuar ədəbiyyatı və müsahibələr) və xarakteristikası verilir. Bundan sonra tədqiqatın mərhələləri şərh olunur və qəbiristanlıqlara dəyən zərərin müəyyən edilməsi üçün metod və onun tətbiqi məsələləri nəzərdən keçirilir. Hesabatın ən mühüm hissəsini faktların sistemləşdirilməsi və təhlili üzrə əldə edilən ümumi nəticələr təşkil edir. Sonda isə qəbiristanlıqların dağıdılmasına görə Ermənistanın beynəlxalq hüquqi məsuliyyəti müəyyən edilir.

Hesabatda tədqiqatın məqsədi metodologiya və mərhələləri izah olunur, istifadə edilən mənbələr təsnif edilir, metodoloji əsaslandırma aparılır.

Hesabat bu vandalizmin tarixi dinamikasını göstərir, aparılan fəaliyyətin nəticələrinin hüquqi aspektlərini araşdırır və beynəlxalq hüquqa istinadən Ermənistanın məsuliyyətini əks etdirir.

Bu tədqiqat azərbaycanlıların tarixi-etnik torpaqlarında baş verən dağıntıların miqyasını ortaya qoymaqla yanaşı, beynəlxalq təşkilatların və dünya ictimaiyyətinin diqqətini problemə yönəltmək məqsədi daşıyır.

Məqsədli şəkildə məhv edilən qəbristanlıqların sənədləşdirilməsi və təhlili ilk dəfə bu seriyadakı hesabatda belə geniş miqyasda həyata keçirilmişdir. Kitab Ermənistanda azərbaycanlılara məxsus qəbristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair fundamental araşdırma sənədidir. Tədqiqat müəlliflərinin peşəkarlığı sayəsində bir sıra məsələlər yüksək praktik səviyyədə işlənmişdir:

- Hələlik Ermənistan Respublikası ərazisində mədəni irsin tərkib hissəsi olan 201 azərbaycanlı qəbiristanlığının peyk vasitəsilə həm tədqiqi, həm də təftişi həyata keçirilmişdir.
- Peyk vasitəsilə monitorinq zamanı müəyyən edilmişdir ki, 157 qəbiristanlıq tamamilə məhv edilmişdir.

Qəbiristanlıqları məhvetmə prosesi 1967-1989-cu illərdə baş vermiş, xüsusilə 42 qəbiristanlıq ağır şəkildə dağıdılmış, 201 qəbiristanlıqdan 2-si günümüzədək qalmışdır (Amasya və Basarkeçərdə).

- Ən çox məhv edilən qəbiristanlıqlar isə Qafan və Basarkeçər rayonlarını əhatə edir.

Hesabatda 2-ci mühüm məsələ Qərbi azərbaycanlıların yaşadıqları rayonların tarixi-coğrafi kontekstdən təsnifatlandırılmasıdır:

- Əvvəlki, sonrakı adları, yaşayış tipləri, yəni yaşayış məntəqələri, sovetlikləri, respublika, rayon və şəhər tipli qəsəbə statusları, onların son durumu ardıcıllıqlı verilmişdir.

Dədə Qorqud kitabı, akademik Ziya Bünyadov, Hüsaməddin Məmmədov, Mehmed Alautdin İslamoğlunun İrəvan vilayətinin müfəssəl dəftərlərinin, Sopenin tərtib etdiyi kameral siyahıların Nazir Əhmədli tərəfindən hazırlanmış son variantları və s. çoxsaylı mənbələrə istinadlar format olaraq çox zəngindir.

- Qəbiristanlıqların coğrafi lokasiyaları irili-xırdalı bütün yaşayış məskənlərini əhatə edir; hətta bəzi qəbir daşlarındakı yazıların transkripsiyası və tərcüməsi verilir.

Hər bir yaşayış məkanının tarixi-coğrafi səciyyəsi, təhlili, tarixi adlanmalardakı siyasi radikallıq, nəhayət coğrafi lokasiya və istinadlar yüksək peşəkarlıq və ziyalı məsuliyyəti ilə işlənmiş, topoqrafik xəritələrin tarixi-coğrafi arealının zəginliyinə xüsusi diqqət yetirilmişdir.

Nəhayət, hesabatın tarixi əhəmiyyətini nəzərə alaraq sonda bəhs edilmiş coğrafi adlar üzrə göstəricilərin verilməsi həm oxunaqlığı, həm də müqayisəli təhlillərin əlçatanlığını təmin edir.

Son istifadə olunmuş Azərbaycan, rus, türk, erməni dilindəki mənbələrin əhatə etdiyi 59 mənbə və ədəbiyyat siyahısı, qəzet materialları, xüsusilə arxiv materialları zənginliyi ilə seçilir. (645 mənbəyə istinad edilmişdir). Təkcə ABŞ-ın Yer resurslarının Müşahidə və Elm Mərkəzinin arxivindən 112 istinad verilməsi tədqiqatın zəngin tarixi-coğrafi areala əsaslandığını göstərir.

Layihənin rəhbəri professor Ədalət Vəliyev, müəllifləri dosent Əziz Ələkbərli və Səbuhi Hüseynovdur. "Qərbi Azərbaycan İrsi" kitabının I cildi təxminən 700 səhifəlik fundamental araşdırma materialı olaraq cənab Prezidentin Qərbi Azərbaycan İcmasının inzibati binasındakı proqram xarakterli çıxışında müəyyən etdiyi strateji hədəflərə, eləcə də ona istinadən hazırlanmış "Qərbi Azərbaycana Qayıdış Konsepsiya"nın tələblərinə müvafiq çox geniş auditoriyaya hesablanmaqla müstəsna tarixi əhəmiyyətə malikdir.

Bu günlərdə toplunun respublika səviyyəli təqdimetmə mərasimlərinin keçirildiyi bir vaxtda daha bir mühüm tarixi hadisəyə şahidlik etdik. Bu da Amerika Birləşmiş Ştatlarında Azərbaycan və Ermənistan respublikaları arasında Zəngəzur dəhlizindən birgə istifadə sayəsində əldə edilmiş razılaşma sevincimizə sevinc qatdı. Ulu Öndər Heydər Əliyev siyasi kursunun daha bir qələbə raportunu dinlədik. 44 günlük müharibədə ərazi bütövlüyümüzü təmin edən qalib Prezident İlham Əliyev Cənubi Qafqazda sülh və barışın müəllifi olduğunu nümayiş etdirdi.

**Həsən BAYRAMOV,**
**Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü,**
**pedaqoji elmlər doktoru, professor.**